# Bolkart üzrə alış-veriş zamanı qiymət siyasəti və xidmət tarifləri

Bolkart ilə alış veriş edərkən, partnyor ticarət subyektindən asılı olaraq aşağıdakı qiymət siyasəti və ödəniş şərtləri mümkündür:

1. **Öz qiymətinə** - bu partnyor ticarət subyektlərində Bolkart qiyməti nağd satış qiymətinə bərabərdir.
2. **Qiymət fərqi ilə** - bu partnyor ticarət subyektlərində Bolkart qiyməti, nağd satış qiymətinə elan edilmiş qiymət fərqi əlavə etməklə formalaşır.
3. **Əlavə komissionla** - bu partnyor ticarət subyektlərində Bolkart qiyməti, nağd satış qiymətinə bərabərdir. Lakin buna əlavə olaraq, müştərinin kart hesabından elan edilmiş əlavə komission haqq tutulur.

Hər bir halda, müştərilər Bolkart aldıqda qiymət siyasəti və ödəniş şərtləri barədə ətraflı məlumatlandırılır və onlara həmin tarixə olan məlumat və siyahılar təqdim edilir. Yenilənmiş məlumat və siyahılar isə daimi olaraq Bolkart-ın rəsmi internet səhifəsində (www.bolkart.az) yenilənir.

Eyni zamanda, müştərilər Bolkart-la alış veriş edərkən, qiymət siyasəti və ödəniş şərtləri barədə partnyor ticarət subyekti tərəfindən tam məlumatlandırılır.

Partnyor ticarət subyektlərində endirim klampaniyaları zamanı, qiymət siyasəti və ödəniş şərtlərində dəyişiklik edilə bilər, bu zaman müştəri yeni şərtlər barədə tam məlumatlandırılmalıdır.

Müştərilər partnyor ticarət subyetlərində, onlara təqdim olunmuş məlumat və siyahılardan fərqli şərtlərlə rastlaşdıqda "145 Məlumat Mərkəzi"nə zəng edərək və ya Bolkart-ın rəsmi internet səhifəsində (www.bolkart.az) Banka bu barədə məlumat vermə hüququna malikdir. Hər bir hal üzrə Bank tərəfindən müvafiq araşdırma aparılır. Araşdırma nəticəsindən asılı olaraq partnyor ticarət subyektlərinə qiymət siyasəti və ödəniş şərtləri barədə xəbərdarlıq edilir və ya yenilənə bilən məlumat daşıyıcılarında müvafiq dəyişikliklər aparılır.

## BOLKART üzrə xidmət tarifləri:

Bol opsiyası nədir?

Bolkartla alış veriş etdikdə kreditin hissəli ödənişi müxtəlif müddət ərzində mümkündür. Bol opsiyaları müvafiq müddəti müəyyən edir.

| | | |
|---|---|---|
| **Kredit kartın müddəti** | **36 ay** | |
| **Kredit üzrə:** | | |
| - faiz dərəcəsi | İllik **0%** | |
| - komissiya | Bol 1 opsiyası vasitəsilə istifadə edilmiş məbləğlər istifadə edilmə tarixindən 1 (bir) ay sonra olan növbəti təqvim ayının 10-dək və ya aşağıdakı cədvələ əsasən (sonrakı nağdlaşdırma imkanlarında, həmin nağdlaşdırma imkanının şərtlərinə əsasən) tam olaraq ödənilmədiyi halda, həmin ayın 11-dən etibarən hər növbəti təqvim ayı üzrə müvafiq məbləğ tam ödənilənədək müvafiq qalıq məbləğinin **2.50%-i** miqdarında aylıq komissiya hesablanır. | |
| **Nağlaşdırmanın "Başlama tarixi"** | **Nağlaşdırmanın "Bitmə tarixi"** | **Nağlaşdırılan vəsaitin əlavə komissiyasız "Ödəmə tarixi"** |
| 23.12.2011 | 04.01.2012 | 10.02.2012 |
| 09.02.2012 | 20.02.2012 | 10.03.2012 |
| 02.03.2012 | 08.03.2012 | 10.04.2012 |
| 15.03.2012 | 26.03.2012 | 10.05.2012 |
| 19.05.2012 | 28.05.2012 | 10.07.2012 |
| 19.07.2012 | 29.07.2012 | 10.09.2012 |
| 17.08.2012 | 21.08.2012 | 10.10.2012 |
| 07.09.2012 | 10.09.2012 | 10.10.2012 |
| 24.10.2012 | 28.10.2012 | 10.12.2012 |
| 17.12.2012 | 03.01.2013 | 10.02.2013 |
| 04.02.2013 | 14.02.2013 | 10.05.2013 |
| 14.03.2013 | 28.03.2013 | 10.05.2013 |
| **Gecikməyə görə cərimə** | Hər gecikdirilən gün üçün gecikdirilmiş məbləğin (gecikdirilmiş əsas borc və / və ya əsas borca hesablanmış komissiyanın) 1%-i (min. AZN 0.50) miqdarında cərimə hesablanır. Bu cərimə, əgər kredit gecikdirilmişdirsə, hər ayın əvvəlindən etibarən 11-ci günündən 90-cı gününədək müddətdə tətbiq edilir. | |
| **Kreditin təyinatı** | Kredit xəttindən yalnız layihə üzrə olan Bankın POS vasitələri ilə ödəniş edilən zaman istifadə etmək mümkündür. Yalnız Bank tərəfindən müəyyən edilmiş tarixlər ərzində Bankın ATM və POS vasitələrilə nağdlaşdırma əməliyyatını aparmaq mümkündür. Əsas borc məbləği ödənildikcə kredit xətti avtomatik bərpa olunur. | |
| **Əlavə şərtlər** | 1) Ərizəçinin eyni zamanda yalnız 1 (bir) aktiv "Bolkart"ı ola bilər;<br>2) Müştərinin ərizəsi əsasında kredit xəttinin məbləği sonradan azaldıla bilər;<br>3) Kart 7 gün ərzində istifadə edilmədikdə müvəqqəti olaraq bloklaşdırılır və yalnız müştəri kartın ŞEN-kodunu hər-hansı ATM və ya POS vasitəsində daxil etdikdən dərhal sonra aktivləşdirilir;<br>4) Hər ayın 20-ci gününədək kredit gecikmədə olduğu təqdirdə, həmin ayın 21-ci günündən etibarən, kredit üzrə gecikdirilmiş borc ödənilənədək (kredit gecikmədən çıxarılanadək), kart bloklaşdırılır. | |
| **Kartın buraxılması və 36 aylıq xidmət haqqı** | Komissiya nəzərdə tutulmayıb | |
| **Kartın yeni kart ilə dəyişdirilməsi** (Kartın itirilməsi, zədələnməsi və ya istifadəyə yararsız olduğu hallarda) | 5 AZN | |
| **ŞEN-in dublikatının verilməsi** (ŞEN-in itirilməsi/unudulması hallarda) | 5 AZN | |
| **ATM vasitəsilə ŞEN-kodun dəyişdirilməsi** | 1 AZN | |

| | | |
|---|---|---|
| **Kartın yenidən aktivləşdirilməsi** | Yenidən aktivləşdirilmə tarixinədək kartla ən azı 1 əməliyyat aparıldıqda və ya yenidən aktivləşdirmə kartın verilmə tarixindən etibarən 12 ay ərzində edildikdə | 2 AZN |
| | Yenidən aktivləşdirilmə tarixinədək kartla heç bir əməliyyat aparılmadıqda və eyni zamanda yenidən aktivləşdirmə kartın verilmə tarixindən 12 aydan artıq vaxt keçdikdən sonra edildikdə | 10 AZN |
| **"Bank of Baku"nun ATM və POS vasitələrilə nağdlaşdırma** | Mümkün deyil | |
| **Digər bankların ATM və POS vasitələrilə nağdlaşdırma** | Mümkün deyil | |
| **"Retail" əməliyyatları** | Komissiya nəzərdə tutulmayıb<br>(yalnız layihə üzrə müvafiq opsiyalara malik olan POS vasitələrilə ödəniş etmək mümkündür) | |

## Ödəniş növü və şərtləri:

### Bol1 opsiyası üzrə:

Bankın ATM və POS terminalları vasitələrilə nağdlaşdırma əməliyyatı aparıldıqda:

Kredit xəttindən aşağıdakı tarixlərdə istifadə edildiyi halda, istifadə edilmiş məbləğ müvafiq tarixinədək tam olaraq ödənildikdə, istifadə edilmiş məbləğə komissiya hesablanmır. İstifadə edilmiş məbləğ tam olaraq və ya ümumiyyətlə ödənilmədiyi halda, müvafiq tarixdən sonra olan gündən etibarən hər növbəti təqvim ayının 10-dək istifadə edilmiş məbləğ üzrə hesablanmış komissiya məbləğləri tam olaraq ödənilməlidir. Əsas borc üzrə ödənişin son tarixi isə kredit kart müddətinin bitməsindən sonra növbəti 12 ay üstəgəl 13-cü ayın 10-dəkdir. Ən geci həmin günü əsas borc tam olaraq ödənilməlidir.

23.12.2011 – 04.01.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.02.2012-ci il tarixinədək;
09.02.2012 – 20.02.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.03.2012-ci il tarixinədək;
02.03.2012 – 08.03.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.04.2012-ci il tarixinədək;
15.03.2012 – 26.03.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.05.2012-ci il tarixinədək;
19.05.2012 – 28.05.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.07.2012-ci il tarixinədək;
19.07.2012 – 29.07.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.09.2012-ci il tarixinədək;
17.08.2012 – 21.08.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.10.2012-ci il tarixinədək;
07.09.2012 – 10.09.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.10.2012-ci il tarixinədək;
24.10.2012 – 28.10.2012-ci il tarixləri ərzində istifadə edildiyi halda, 10.12.2012-ci il tarixinədək;
17.12.2012 – 03.01.2013-cü il tarixləri ərzində istifadə edildiyi halda, 10.02.2013-cü il tarixinədək;
04.02.2013 – 14.02.2013-cü il tarixləri ərzində istifadə edildiyi halda, 10.05.2013-cü il tarixinədək;
14.03.2013 – 28.03.2013-cü il tarixləri ərzində istifadə edildiyi halda, 10.05.2013-cü il tarixinədək.
Sonrakı nağdlaşdırma imkanlarında, həmin nağdlaşdırma imkanının şərtlərinə əsasən

Layihəyə aid POS terminal vasitəsilə ödəniş əməliyyatı aparıldıqda:

İstifadə edilmiş məbləğ istifadə edilmə tarixindən sonra olan növbəti təqvim ayının 10-dək tam olaraq ödənildikdə, istifadə edilmiş məbləğə komissiya hesablanmır. İstifadə edilmiş məbləğ tam olaraq və ya ümumiyyətlə ödənilmədikdə, kredit xəttindən istifadə edilmə tarixindən 1 ay sonra olan növbəti təqvim ayından başlayaraq hər növbəti təqvim ayının 10-dək istifadə edilmiş məbləğ üzrə hesablanmış komissiya məbləğləri tam olaraq ödənilməlidir. Əsas borc üzrə ödənişin son tarixi isə kredit kart müddətinin bitməsindən sonra növbəti 12 ay üstəgəl 13-cü ayın 10-dəkdir. Ən geci həmin günü əsas borc tam olaraq ödənilməlidir.

## Bol 3 opsiyası üzrə:

Kredit xəttindən istifadə edildiyi təqdirdə, istifadə edilmə tarixindən sonrakı hər növbəti təqvim ayının 10-dək müddətində maksimum 3 ay ərzində istifadə edilmiş məbləğ bərabər hissələrlə ödənilmək şərtilə tam olaraq ödənilməlidir.

## Bol 6 opsiyası üzrə:

Kredit xəttindən istifadə edildiyi təqdirdə, istifadə edilmə tarixindən sonrakı hər növbəti təqvim ayının 10-dək müddətində maksimum 6 ay ərzində istifadə edilmiş məbləğ bərabər hissələrlə ödənilmək şərtilə tam olaraq ödənilməlidir.

## Bol 12 opsiyası üzrə:

Kredit xəttindən istifadə edildiyi təqdirdə, istifadə edilmə tarixindən sonrakı hər növbəti təqvim ayının 10-dək müddətində maksimum 12 ay ərzində istifadə edilmiş məbləğ bərabər hissələrlə ödənilmək şərtilə tam olaraq ödənilməlidir.

## Qeydlər:

Yuxarıda göstərilən Bol opsiyalarından başqa Bol opsiyaları tədbiq edildikdə, ödəniş yuxarıdakı (Bol 3, Bol 6, Bol 12) opsiyalarına uyğun olaraq müvafiq müddətdə aparılır.

Göstərilmiş ödəniş növləri hər bir istifadə edilmiş kredit məbləğinə münasibətdə fərdi qaydada tədbiq edilir. Kredit kartın müddəti bitdikdə, lakin opsiyalar üzrə aktiv borc qaldıqda, borcun ödənilməsi müvafiq opsiyaya uyğun olaraq davam etdirilməlidir.

## Ödənilmiş məbləğin opsiyalar üzrə silinmə ardıcıllığı

A. Ödəniş təqvim ayının ilk 10 günü ərzində və ya ödənişin edilmə tarixindən asılı olmayaraq kredit gecikmədə olarkən həyata keçirildikdə:
   1) Hesablanmış cərimələrin ödənilməsi;
   2) Bol1 opsiyası əsasında yaranmış kreditlər üzrə hesablanmış komissiya məbləğlərinin ödənilməsi;
   3) Bol3 / Bol6 / Bol12 /* opsiyası əsasında yaranmış kreditlərin müvafiq ay üzrə olan məbləğlərin ödənilməsi;
   4) Bol1 opsiyası ilə yaranmış kreditlərin əsas borclarının ödənilməsi;
   5) Bol3 / Bol6 / Bol12 /* opiyası üzrə yaranmış əsas borcların ödənilməsi.

B. Ödəniş təqvim ayının digər günlərində kredit gecikmədə olmadığı halda həyata keçirildikdə:
   1) Hesablanmış cərimələrin ödənilməsi;
   2) Bol1 opsiyası əsasında yaranmış kreditlər üzrə hesablanmış komissiya məbləğlərinin ödənilməsi;
   3) Bol1 opsiyası ilə yaranmış kreditlərin əsas borclarının ödənilməsi;
   4) Bol3 / Bol6 / Bol12 /* opsiyası əsasında yaranmış kreditlərin müvafiq ay üzrə olan məbləğlərin ödənilməsi;

Bol3 / Bol6 / Bol12 /* opiyası üzrə yaranmış əsas borcların ödənilməsi.

*** Qeyd edilməyən opsiya istifadə edildikdə bu qaydalar keçərlidir.**